

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 189 (23.831)

13 oktyabr 2021-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 12-də Türkiyə Respublikasının ətraf mühit və şəhərsalma naziri Murat Kurumu qəbul edib.

Nazir Murat Kurum Türkiyə Prezidenti Rəcəb Təyyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırıb. Prezident İlham Əliyev Türkiyənin dövlət başçısının salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Rəcəb Təyyib Ərdoğana çatdırmağı xahiş edib.

Görüşdə ölkələrimiz arasında ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb. Türkiyənin ətraf mühit və şəhərsalma nazirinin ölkəmizə səfərinin Azərbaycan və Türkiyənin müvafiq qurumları arasında əlaqələrin genişləndirilməsinə töhfə verəcəyinə ümidvarlıq ifadə olunub.

Söhbət zamanı işğal dövründə ermənilərin Azərbaycan torpaqlarında təbiətə böyük ziyan vurması, meşələri kütləvi surətdə qırması, çayları çirkləndirməsi barədə danışılıb.



Dövlət proqramı icra olunur

## Muxtar respublikada rəqəmsal ödəniş xidmətlərinin tətbiqi və nağdsız hesablaşmaların genişləndirilməsi proqrama uyğun aparılır

*Nağd pul kütləsinin həcminin dövriyyədə üstünlük təşkil etməsi, öz növbəsində, bir sıra struktur problemlərin, o cümlədən maliyyə intizamının pozulması, qeyri-mütəşəkkil pərakəndə ticarətin üstünlük təşkil etməsi, şəffaflığın aşağı olması və sair kimi problemlərin yaranmasına gətirib çıxarır. Beynəlxalq təcrübə göstərir ki, nağdsız ödənişlər iqtisadi artıma o zaman effektiv təsir bağışlaya bilər ki, ölkədə müəyyən ödəniş infrastrukturu, istifadə bacarıqları, institusional mühit yaradılsın.*

Məhz bu faktorlar nəzərə alınaraq Naxçıvan Muxtar Respublikasında da nağdsız ödənişlərin iqtisadiyyatdakı çəkisini artırmaq üçün 2013-2015-ci illəri əhatə edən "Naxçıvan Muxtar Respublikasında elektron ödəniş məkanının formalaşdırılması və nağdsız hesablaşmaların həcminin artırılması üzrə Tədbirlər Planı", "2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram", "2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram" işlənib hazırlanmış və Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən təsdiq edilmişdir.

Proqramlarda nağdsız ödənişlərin inkişafı ilə bağlı banklar və digər aidiyyəti qurumların koordinasiyalı fəaliyyətinin təmin edilməsi, ödəniş infrastrukturunun modernləşdirilməsi və əhatə dairəsinin genişləndirilməsi ilə yanaşı, ictimaiyyətin maarifləndirilməsi istiqamətində də geniş təbliğat-təşviqat işlərinin aparılması nəzərdə tutulmuşdur.

Əvvəlki illərdə olduğu kimi, sonuncu proqramın icrası da Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən daim nəzarətdə saxlanılmış və infrastrukturun genişləndirilməsi istiqamətində əsaslı irəliləyişlər əldə edilmişdir. Bunun nəticəsidir ki, 2021-ci ilin sentyabr ayında muxtar respublika sakinləri tərəfindən, ümumilikdə, 9 milyon 993 min manat həcmində nağdsız ödəniş həyata keçirilmişdir. Proqrama uyğun olaraq ötən dövrdə aparılmış tədbirlərin ümumi nəticəsini əks etdirən bu göstərici proqramın ilk mərhələsinin (2019-cu il) müvafiq dövrünün göstəricisindən 3 dəfə çoxdur.

Cari ay ərzində aparılmış nağdsız əməliyyatların 30 faizi və ya 3 milyon manatı POS-terminallar, 70 faizi və ya 6 milyon 998 min manatı isə internet və ya digər ödəniş vasitələri ilə həyata keçirilmişdir. POS-terminallar üzrə aparılmış əməliyyatların həcmi proqramın ilk mərhələsinin (2019-cu il) müvafiq dövrünün göstəricisindən 2,2 dəfə, internet və ya digər ödəniş vasitələri ilə həyata keçirilən əməliyyatların həcmi isə 3,3 dəfə artmışdır. Artım nəticələrində infrastrukturun yenilənməsi və genişləndirilməsi ilə yanaşı, əhali arasında aparılan maarifləndirmə tədbirlərinin də payı danılmazdır. Əlbəttə, ödəniş vasitələrinin artımı da, bu mənada, xüsusi əhəmiyyət kəsb edir. Belə ki, əgər 2019-cu ilin əvvəlinə əsas nağdsız ödəniş vasitəsi sayılan POS-terminalların sayı 1272 ədəd (575-i Naxçıvan şəhərində, 697-si rayon və kənd mərkəzlərində) təşkil edirdisə, hazırda bu göstərici 230 ədəd çox olmaqla, 1502 ( 760-ı Naxçıvan şəhərində, 742-si rayon və kənd mərkəzlərində) ədəddir. Həmçinin 2019-cu ilin əvvəlinə bir POS-terminal üzrə nağdsız ödəniş həcmi 789 manat təşkil edirdisə, 1 oktyabr 2021-ci il tarixə bu göstərici 2,5 dəfə artaraq 2000 manat olmuşdur. Hazırda muxtar respublikada banklar tərəfindən quraşdırılmış 109 bankomat və 102 ödəniş terminalı vasitəsilə də sakinlər nağdsız və nağd əməliyyatlarını həyata keçirə bilərlər. Bu gün muxtar respublikada mövcud ödəniş kartlarının sayı 265 min 318 ədəd təşkil edir ki, bu da əhalinin 50 faizdən çoxunun kartla təmin olunması deməkdir.

Muxtar respublikamızda fəaliyyət göstərən banklarda əhaliyə bir sıra məsafəli bank xidmətləri də göstərilir. Belə ki, banklarda hazırda internet bankinq xidməti, mobil bankinq xidməti, kartların banka getmədən onlayn sifarişi, onlayn kreditlərin sifarişi, ödəniş terminalları vasitəsilə kommunal, kredit ödənişlərinin, smartkartların balansının artırılması, mobil rabitə ödənişləri və sair əməliyyatların həyata keçirilməsi mümkündür. Proqrama uyğun olaraq bu xidmətlərin daha müasir istiqamətdə inkişaf etdirilməsi, siyahısının daha da genişləndirilməsi üzrə tədbirlər görülür. 2021-ci ilin 3-cü rübü ərzində də ödəmə terminallarında kreditin ödənilməsi, kart hesabına vəsaitin mədaxil edilməsi, hüquqi və fiziki şəxslərin cari hesabına vəsaitin mədaxili, sosial, vergi və sair büdcə ödənişlərinin yığımı və Hökumət Ödəniş Portalı (HÖP) vasitəsilə xidmətlərin ödənilməsi təmin edilmişdir. Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi və Təhsil Nazirliyi ilə birgə artıq yeni tədris ilindən etibarən muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri tərəfindən təhsil haqlarının Hökumət Ödəniş Portalı vasitəsilə ödənilməsi də təmin olunmuşdur.

Nağdsız ödənişlərin inkişaf etdirilməsi istiqamətində infrastruktur və maarifləndirmə işləri ilə yanaşı, həvəsləndirici tədbirlərin keçirilməsi də davam etdirilmişdir. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti ilə birgə 2021-ci ilin birinci yarım ili üzrə "Nağdsız ödəyin, hədiyyə qazanın!" adlı həvəsləndirici tədbirin iyul ayında 15-ci tirajı keçirilmiş, 445 şəxsə 25 min manat dəyərində hədiyyələr təqdim olunmuşdur.

Bu gün infrastrukturun genişləndirilməsi, institusional mühitin formalaşdırılması və stimullaşdırma tədbirlərinin mütəmadi şəkildə aparılmasına baxmayaraq, hələ də bu sahədə çatışmazlıqların olması özünü büruzə verməkdədir. Buna səbəb isə məhz ictimaiyyətin hələ də nağdsız ödənişlərə tam olaraq üstünlük verməməsindən irəli gəlir. Hələ də bankomatların qarşısında nağd pul çəkmək üçün növbələrin yarandığını müşahidə etmək mümkündür. Bankomatdan, sadəcə, nağd pul çəkmək üçün istifadə edən vətəndaşlarımız isə kifayət qədərdir. Halbuki bankomat adlanan bu ödəniş aləti, əslində, bir çox nağdsız əməliyyatları həyata keçirməyə də imkan verir.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin qarşıya qoyduğu əsas məqsədlərdən biri də məhz proqramda nəzərdə tutulmuş digər tədbirlərin 2021-ci ildə də uğurla davam etdirilməsi və müvəffəqiyyətlə başa çatdırılmasıdır.

**Sabir SƏFƏROV**
***Azərbaycan Respublikası Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin İqtisadi təhlil və statistika şöbəsinin aparıcı mütəxəssisi***



## Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyətinin yola salınması mərasimi keçirilib

"Sarsılmaz qardaşlıq – 2021" Azərbaycan-Türkiyə birgə əməliyyat-taktiki təlimində iştirak etmiş Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyətinin yola salınması mərasimi keçirilib.

Mərasimdə çıxış edənlər "Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı"na və Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə əsasən Naxçıvanda keçirilmiş "Sarsılmaz qardaşlıq – 2021" birgə əməliyyat-taktiki təlimində iki qardaş ölkənin hərbi qulluqçularının yüksək peşəkarlıq, vətənpərvərlik və sarsılmaz qardaşlıq nümayiş etdirdiklərini vurğulayıblar.

Təlimdə iştirak etmiş Türkiyə Silahlı Qüvvələri mənsublarına hədiyyələr təqdim edilib.

Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsindən yola düşən Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyəti və hərbi texnikaları "Ümid" körpüsündən keçməklə xidmət yerlərinə doğru hərəkəti davam etdiriblər.

**Nəriman NƏCƏFOV**

## Kompleks quruculuq işləri davam etdirilir

*Ordubad rayonunun bir neçə yaşayış məntəqəsi də yaxın günlərdə muxtar respublikanın müasir kəndləri sırasına qoşulacaq. Həmin yaşayış məntəqələrindən biri Vələver kəndidir.*

Vələver rayonun qədim yaşayış məntəqələrindən biridir. Burada eyni vaxtda məktəb binasının, kənd və xidmət mərkəzlərinin inşası aparılır. Zirzəmi ilə birlikdə 3 mərtəbədən





ibarət olacaq 198 şagird yerlik yeni məktəb binasının tikintisində əsas inşaat işləri, demək olar ki, yerinə yetirilib. Müasir standartlara cavab verəcək təhsil ocağında nümunəvi şərait yaradılacaqdır. Burada kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, kompüter, müəllimlər və psixoloq otaqları, STEAM kabinəsi, kitabxana, qarderob, idman zalı, bufet və digər yardımçı otaqlar olacaq.

Kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, bələdiyyə, baytarlıq və polis sahə məntəqələri, kitabxana, poçt bölməsi, rabitə, statistika otağı, eləcə də klub fəaliyyət göstərəcəkdir. Yeni feldşer-mama məntəqəsi isə tibbi xidmətin keyfiyyətini daha da artıracaqdır. Tikintisi aparılan xidmət mərkəzində bərbərxana, gözəllik salonu, ət satışı yeri, ərzaq və təsərrüfat malları mağazaları və anbar yerləşəcəkdir.

Dırnıs kəndində də məktəb binası, kənd və xidmət mərkəzi, eləcə də həkim ambulatoriyası inşa olunur. 216 şagird yerlik məktəb binasında əsas tikinti işləri görülüb qurtarıb. Məktəb binasında müasir tədris şəraiti yaradılacaq. Kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəliklə yanaşı, digər dövlət qurumları üçün də otaqlar yerləşəcəkdir. Həkim ambulatoriyasında kənd sakinlərinin sağlamlığının qorunması üçün yeni avadanlıqlar quraşdırılacaq. Kənd sakinlərinin rahatlığını təmin edəcək xidmət mərkəzində istehlakçıların gündəlik tələbatı nəzərə alınmaqla daha çox yerli kənd təsərrüfatı məhsullarının satışı həyata keçiriləcəkdir.

Kələki kəndində isə kənd və xidmət mərkəzləri tikilir. Dövlət qurumları ilə yanaşı, feldşer-mama məntəqəsinin fəaliyyəti üçün də şərait yaradılır.

Rayonun ucqar yaşayış məntəqələri olan Unus və Pəzməri kəndlərində də quruculuq tədbirləri sürətlə davam etdirilir. Unusda kənd və xidmət mərkəzləri, Pəzməridə isə məktəb binası, kənd və xidmət mərkəzləri inşa olunur.

**Abbas SEYİD**

# Qars müqaviləsi və onun tarixi əhəmiyyəti

***Cənubi Qafqaz respublikaları ilə Türkiyə arasında bağlanmış Qars müqaviləsinin imzalanmasından 100 il ötür. 1921-ci il oktyabrın 13-də imzalanan və Moskva müqaviləsindəki müəyyənləşdirilmiş müddəalarla üst-üstə düşən Qars müqaviləsi ilə Türkiyə və Cənubi Qafqaz respublikaları arasında digər məsələlər, xüsusən də ərazi-sərhəd problemi həll olunmuşdur. Müqaviləyə görə, Türkiyə ərazi verilməsi baxımından heç bir güzəştə getməyərək şimal-şərq sərhədlərini qoruyub saxlamış, Naxçıvanla bağlı məsələ öz ədalətli həllini tapmışdır.***

Ermənistan-Türkiyə müharibəsində daşnakların məğlubiyyəti nəticəsində Türkiyənin regionda hərbi və siyasi nüfuzunun artması Sovet Rusiyasını Ermənistanı tezliklə sovetləşdirməyə məcbur etdi. Ermənistanın daşnak rəhbərliyi Naxçıvanı Azərbaycandan qoparmaq üçün bütün vasitələrdən istifadə edirdi. 1918-1920-ci illərdə ermənilər silahlı qüvvələrdən istifadə edərək Naxçıvanda qırğınlar törətsələr də, əhalini tabe edə bilmədilər. 1920-ci il oktyabrın 28-də Sovet Rusiyası ilə daşnak Ermənistanı arasında bağlanmış müqavilə ilə Azərbaycanın rəyi nəzərə alınmadan Zəngəzur və Naxçıvan Ermənistana güzəşt edildi. 1920-ci il noyabrın 29-da Ermənistanda bolşevik hakimiyyəti yaradıldı. Bu münasibətlə Azərbaycan Hərbi İnqilab Komitəsi 1 dekabr 1920-ci ildə bəyanatla çıxış etdi. Bəyanat Rusiyanın diktəsi ilə yazılmışdı və "iki sovet respublikası arasında ərazi mübahisələrinin Azərbaycanın milli mənafeyinə zidd şəkildə həll edilməsinə yönəlmişdi". Azərbaycan Hərbi İnqilab Komitəsinin bəyanatı Naxçıvan və Zəngəzur müsəlman əhalisinin güclü narazılığına səbəb oldu. Ermənilərin alçaq niyyətlərinə təcrübədə bələd olan Naxçıvan əhalisi bu diyarın Azərbaycandan qoparılmasına qarşı etiraza qalxdı. Bu bəyanat Türkiyə nümayəndələrinin də etirazı ilə qarşılandı.

Vəziyyətin kəskinləşdiyini görən Azərbaycan rəhbərliyi Behbud ağa Şahtaxtinskini Naxçıvana göndərdi. Naxçıvana gələn Behbud ağa Şahtaxtinskinin keçirdiyi mitinqlərdə əhalinin böyük əksəriyyəti Naxçıvanın Azərbaycan SSR-in himayəsində müstəqil sovet respublikası kimi təşkil edilməsi arzusunda olduqlarını bildirmişdi. Ermənistan Respublikası Naxçıvan əhalisinin iradəsi qarşısında dura bilməyib diplomatik fənd işlətdi və Naxçıvanı 1920-ci il 28 dekabr bəyanatı ilə müstəqil sovet respublikası kimi tanıdığını bildirdi. Daşnakların ona qarşı ərazi iddialarından imtina edildiyi göstərildi. Rusiya tərəfi də müəyyən siyasi səbəblərdən Naxçıvanın müsəlman əhalisinin iradəsi ilə hesablaşaraq Türkiyə tərəfinin təkliflərini, Azərbaycan bolşevik rəhbərlərinin bir sıra üzvlərinin mövqeyini nəzərə alaraq Naxçıvanın öz müqəddəratını həll etmək hüququnu tanımaq məcburiyyətində qaldı. Naxçıvan ərazisini Azərbaycandan ayıran Zəngəzur mahalının Ermənistana verilməsi Naxçıvanın muxtariyyət məsələsini zəruriləşdirdi. Ermənistan SSR hökuməti Naxçıvanı ilhaq etmək üçün yeni cəhdlər göstərdi. Lakin 1921-ci ilin yanvarında keçirilmiş rəy sorğusunda Naxçıvan əhalisinin 90 faizdən çoxu mahalın muxtariyyət statusunda Azərbaycan SSR-in tərkibində qalmasına səs verdi.

Naxçıvanın Azərbaycanın tərkibində qalmasına çalışan Behbud ağa Şahtaxtinskinin fəaliyyətini xüsusi qeyd etməliyik. Onun Rusiya XKS-nin sədri V.İ.Leninə göndərdiyi 1 mart 1921-ci il tarixli teleqram-məktubunda Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ, Zaqatala, Borçalı, Qarayazı düzü, Dağıstan, Şimali Qafqaz müsəlman xalqlarının milli tərkibi, sayı haqqında məlumat verilir. O bu məktubda Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ ərazilərinin gələcəyindən duyulan narahatlığı çatdırmış, bu mahalların milli tərkibi və coğrafiyasına dair arayışları da əlavə etmiş, Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər vermişdi. B.Şahtaxtinskinin təklifləri V.İ.Lenini maraqlandırmış və o, məsələnin RK(b)P MK Siyasi Bürosunda müzakirə edilməsi barədə göstəriş vermişdi. Bu zaman Türkiyə nümayəndə heyəti Rusiya ilə danışıq aparmaq və müqavilə bağlamaq üçün Moskvaya gəlmişdi. Nümayəndə heyətinə əvvəlcə Bəkir Sami bəy, sonra isə Yusif Kamal bəy rəhbərlik edirdi. Fevralın 26-da başlayan danışıqlar martın 16-da "Dostluq və qardaşlıq haqqında" Moskva müqaviləsi ilə nəticələndi. Müqavilə 16 maddə və 2 əlavədən ibarət idi. Müqavilədə bir sıra məsələlərlə yanaşı, Naxçıvanın Azərbaycanın himayəsində muxtariyyət statusu və bu himayəçiliyi üçüncü dövlətə verməyəcəyi öz əksini tapdı. Türk diplomatlarının səyi və təkidi nəticəsində Şərur-Dərələyəz Naxçıvanın ərazisi, Şərur-Dərələyəzi Ermənistandan ayıran xətt isə Naxçıvan-Ermənistan sərhəd xətti kimi qəbul edildi. Bu məsələlər Moskva müqaviləsinin 3-cü maddəsində və 1(C) əlavəsində öz əksini tapdı.

Moskva müqaviləsi ilə Rusiyanın Türkiyə ilə mübahisəli məsələləri həll olunsa da, Türkiyənin Cənubi Qafqaz respublikaları arasındakı ərazi-sərhəd məsələləri həll olunmamış qalmışdı. Ona görə də bu məsələlərin də həlli üçün yeni bir konfransın keçirilməsi zəruri idi. Bu konfransın keçirilməsi yeri əvvəl mübahisə doğursa da, son nəticədə, Qars şəhərində keçirilməsi razılaşdırıldı. Türkiyə hökuməti istəyirdi ki, Cənubi Qafqaz respublikalarının hər biri ilə ayrı-ayrılıqda müqavilə bağlasın. Rusiya isə buna razı deyildi. Bu məqsədlə 1921-ci il mayın 7-də Cənubi Qafqaz respublikalarının xarici işlər nazirləri Tiflisə çağırılmışdı. Bu müzakirələrdə Azərbaycanı M.D.Hüseynov və B.Ə.Şahtaxtinski təmsil edirdi. Q.Orconikidze və B.Leqranın sədrliyi ilə keçirilən iclas hər üç Cənubi Qafqaz respublikasının qarşıdakı konfransda vahid mövqe tutması barədə qərar qəbul etdi. Qərarda deyilirdi: *"Moskva müqaviləsi Türkiyə ilə aparılacaq danışıqların və imzalanacaq müqavilələrin əsasını təşkil etməlidir"*.

1921-ci il 26 avqustda Azərbaycan K(b)P MK Bürosunun iclasında Türkiyə ilə müqaviləni imzalamaq üçün Azərbaycan nümayəndə heyətinin göndərilməsi məsələsi müzakirə edildi və B.Ə.Şahtaxtinski nümayəndə heyətinin sədri təsdiq edildi. Onun sədr təsdiq edilməsi faktının özü Sovet Azərbaycanı rəhbərliyinin vəziyyətin ümumittifaq nizamlanması kontekstində Naxçıvan probleminin hüquqi baxımdan təsbitində maraqlı olduğunu dolayısı ilə təsdiq edirdi. Qeyd etmək lazımdır ki, Azərbaycan KP-nin rəhbərliyində olan erməni əsilli nümayəndələr S.Danielyan, L.Mirzoyan, A.Mikoyan Q.Orconikidze ilə birlikdə hələ 1921-ci ilin iyununda B.Şahtaxtinskini danışıqlardan uzaqlaşdırmağa və onu özləri üçün daha əlverişli adamla əvəz etməyə can atırdılar. Yalnız N.Nərimanovun bu məsələ ilə bağlı dəyişməz mövqeyi sayəsində B.Şahtaxtinski fəaliyyətini davam etdirə bildi.

Sovet Rusiyası ilə Türkiyə Xarici İşlər idarələri arasında yazışmalar nəticəsində Qars konfransının açılışı sentyabr ayının 26-na müəyyən edildi. 1921-ci il sentyabrın 3-də Rusiya KP MK-nın Qafqaz bürosu iclasda "Qars konfransı məsələsi" mövzusunda müzakirə keçirdi. Qarşıdakı Qars konfransında Rusiya və Cənubi Qafqaz respublikaları üçün təlimat xarakterli 7 maddədən ibarət qətnamə hazırlanmışdı. Qars konfransının keçirilməsi ərəfəsində – sentyabrın 17-də Türkiyə Böyük Millət Məclisi hökumətinin xarici işlər naziri Yusif Kamal bəy türk heyətinin konfransda necə hərəkət edəcəyi ilə bağlı Kazım Qarabəkir Paşaya təlimat göndərdi. Təlimatda Cənubi Qafqaz respublikaları ilə bağlı ayrı-ayrılıqda göstərişlər yer almışdı. Burada Azərbaycanla imzalanacaq müqavilə ilə bağlı məsələlərin nəzərə alınması tövsiyə edilirdi.

Qars konfransı 1921-ci il sentyabrın 26-dan oktyabrın 13-dək keçirilmişdir. Açılışda Kazım Qarabəkir Paşa, Yakov Qanetski və Askanaz Mravyan çıxış etmişlər. Qars danışıqları çox gərgin və prinsipial keçmiş, tərəflər çoxlu mülahizə və təkliflərlə çıxış etmişlər. Konfransın birinci iclası onun gündəliyini müəyyənləşdirdi. İlk iclasda Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında müqavilə forması ciddi müzakirə predmetinə çevrildi. Türk heyəti hər bir respublika ilə ayrı-ayrılıqda müqavilələr imzalanmasını təklif etdi. Kazım Qarabəkir Paşa bunu belə əsaslandırırdı ki, *"Moskva hökuməti Güney Qafqaz respublikalarını müstəqil tanıdığını bildirir. Ona görə də biz onların hər biri ilə müstəqil dövlət kimi ayrıca müqavilə bağlamaq istəyirik"*.

RSFSR-in nümayəndəsi Y.Qanetski bir ümumi müqavilənin bağlanmasında israr edirdi və xeyli sayda dəlillər gətirirdi. Əslində isə Y.Qanetskinin gətirdiyi dəlillər Rusiyanın bu respublikaların xarici siyasətini ləğv etmək, özünə birləşdirmək, gələcəkdə isə vahid dövlət yaratmaq niyyətlərinə xidmət edirdi.

Qars konfransından əvvəl Tiflisdə bütün məsələlər olduğu kimi, Naxçıvan məsələsi də Azərbaycan və Ermənistan nümayəndələri arasında müzakirə edildi. Bu müzakirələr nəticəsində onlar ümumi mövqeni əks etdirən xüsusi memorandum tərtib edib, Türkiyə nümayəndələrinə təqdim etdilər. Memorandumda bir sıra digər məsələlərlə yanaşı, Ermənistanın xeyrinə bəzi sərhəd düzəlişləri edilməklə "Azərbaycan SSR tərkibində muxtar Naxçıvan Sovet Respublikasının yaradılması" nəzərdə tutulurdu. Diplomatik müzakirələr nəticəsində hazırlanan memorandumun əsas məqsədi Türkiyəni Naxçıvan məsələsindən kənarlaşdırmaq idi. Konfransdakı müzakirələr açıq şəkildə göstərdi ki, Moskva müqaviləsindən fərqli olaraq Sovet təmsilçiləri bölgəyə türk nümayəndələrinin də daxil olduğu qarışıq bir komissiya göndərilməsi ehtimalını aradan qaldırmağa çalışırlar. Naxçıvan məsələsini Ankaranın iştirakı olmadan həll edilə bilən daxili işə çevirmək istəyirlər. Lakin Naxçıvan məsələsinə çox həssas yanaşan türk diplomatiyası buna yol vermədi. K.Qarabəkir Paşa Moskva müqaviləsinə uyğun olaraq Naxçıvan məsələsini Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında imzalanacaq müqaviləyə daxil edilməsini istədi.

Nəhayət, uzun sürən müzakirə və mübahisələrdən sonra 1921-ci il oktyabrın 13-də RSFSR-in nümayəndəsinin iştirakı ilə Azərbaycan, Gürcüstan və Ermənistan nümayəndələri Türkiyə diplomatları ilə 20 maddədən və 3 əlavədən ibarət Qars müqaviləsini imzaladılar. Qars müqaviləsinin V maddəsi və III əlavəsi Naxçıvanın ərazi mənsubiyyəti məsələsini bir daha təsdiqlədi, onun sərhədlərini qəti surətdə müəyyənləşdirdi. Qeyd olunan maddədə yazılırdı: *"Türkiyə hökuməti, Azərbaycan və Ermənistan Sovet respublikaları müqavilənin III əlavəsində göstərilən sərhədlər daxilində Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsi haqqında razılığa gəlirlər"*. Müqavilənin bu maddəsindən görünür ki, burada Moskva müqaviləsinin üçüncü maddəsinin müəyyən bir hissəsi, yəni "Azərbaycan bu himayəçilik haqqının üçüncü bir dövlətə heç bir zaman güzəştə gedə bilməməsi" öz əksini tapmamışdı. Lakin məsələnin belə qoyuluşunun üstün cəhəti ondan ibarət idi ki, Ermənistan Naxçıvan vilayətinin Azərbaycan ərazisi olduğunu tanıyır və müqaviləni imzalamaqla öz üzərinə siyasi-hüquqi öhdəlik götürmüş olurdu. Lakin göründüyü kimi, bu halda Moskva müqaviləsindən fərqli olaraq Azərbaycanın Naxçıvanı "heç bir üçüncü dövlətə güzəştə getməməsi" sənəddə yer almırdı. Naxçıvanın ərazisi isə müqavilənin III əlavəsində göstərilən sərhədlər daxilində müəyyən edilirdi: *"(Naxçıvan ərazisi) Urmiya kəndindən (başlayır), oradan düz xətt ilə Arazdəyən stansiyasına (bu stansiya Ermənistan SSR-ə qalacaq), sonra düz xətt ilə Daşburun dağının (3142) qərbinə, oradan Daşburun dağının suayırıcısını (4108), Cəhənnəm dərəsi çayını, Bağırsaq dağının suayırıcısını (6607 və ya 6587) keçərək, "Rod." (Bulaq) yazısının cənubundan keçmiş İrəvan və Şərur-Dərələyəz qəzalarının inzibati sərhədləri ilə gedərək, 6629 yüksəkliyindən Kömürlüdağa (6839 və ya 6930), oradan 3080 yüksəkliyinə, Sayatdağa (7868), Qurdqulaq kəndinə, Həməsir dağına (8160), 8022 yüksəkliyinə, Küküdağa (10282) və nəhayət, keçmiş Naxçıvan qəzasının şərqi inzibati sərhədində qurtarır"*.

Göründüyü kimi, Qars müqaviləsinin V maddəsi ilə Ermənistan Naxçıvan vilayətinin Azərbaycanın himayəsinə verildiyini və Azərbaycanın bu müdafiəsini qəbul etdiyini təsdiqlədi. Müqavilənin ən əhəmiyyətli tərəflərindən biri də onun müddətsiz imzalanması idi.

Sovet Rusiyasının müqavilələrlə əlaqədar olan nümayəndələrinin (G.Çiçerin, B.Leqran, Y.Qanetski və başqa) təhriki ilə Naxçıvanın sərhədləri Gümrü və Moskva müqavilələrinə görə kiçildilmiş (Moskva müqaviləsinə görə Naxçıvanın sahəsi 6038 kvadratkilometr idi), Dəvəli, Arazdəyən və başqa ərazilər Ermənistana verilmişdir. Artıq Naxçıvanın şimal-qərbdə Ermənistan ilə olan sərhədinin üç nöqtəsini Sədərək təşkil edir (Qars müqaviləsinə görə Naxçıvanın sahəsi 5753 kvadratkilometr olmuşdur, yəni 285 kvadratkilometr azalmışdır).

Qars müqaviləsində mühüm yerlərdən biri də Batumla bağlı idi. Türkiyə Batum limanını və Batum şəhərini, həmçinin bu müqavilənin dördüncü maddəsi ilə müəyyən edilmiş sərhədlərdən şimalda yerləşən və Batum vilayətinə daxil olan ərazilər üzərində suverenliyini müəyyən şərtlərlə Gürcüstana güzəştə getdi.

Beləliklə, Moskva və Qars müqavilələri Naxçıvanın statusu və təbeçiliyi məsələsini beynəlxalq müqavilələrlə tam şəkildə həll etmişdir. Bu müqaviləni imzalayan dövlətlərdən hər hansı biri onu birtərəfli qaydada ləğv edə bilməz. Qars müqaviləsi 1922-ci ilin mart-iyun aylarında müqaviləni imzalayan ölkələrin qanunverici orqanlarında təsdiq edilmiş və həmin il sentyabrın 11-dən qüvvəyə minmişdir. Qars müqaviləsi Moskva müqaviləsinin maddələrinin, əsasən, təkrarından ibarət idi. Əgər Moskva müqaviləsi ilə Rusiya və Türkiyə müəyyən razılığa gəlmişdirsə, Qars müqaviləsinə görə, belə razılıq Rusiyanın iştirakı ilə Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında əldə edilmişdi. Bu müqavilənin tərəflər üçün mühüm əhəmiyyəti oldu. Türkiyə vaxtilə ona zorla qəbul etdirilən Sevr müqaviləsinə qarşı Rusiya ilə birlikdə Cənubi Qafqaz respublikalarının dəstəyini aldı. O, Cənubi Qafqaz respublikaları ilə, xüsusilə Ermənistanla münasibətlərini tənzimlədi, özünün bu respublikalarla olan sərhədlərinin təhlükəsizliyini təmin etdi. Bu müqavilənin Rusiya üçün də əhəmiyyəti var idi. Rusiya tanınmayan bolşevik hökuməti üçün Türkiyədən dəstək aldı. Türkiyə ilə sərhədlərində təhlükəsizliyi təmin etdi. Rusiya həm də Cənubi Qafqazda öz təsirini və hökmranlığını möhkəmləndirdi. Müqavilənin Cənubi Qafqaz respublikaları üçün də əhəmiyyətli cəhətləri vardır. Bu respublikaların Türkiyə ilə ərazi məsələləri həll edildi, onunla mehriban qonşuluq münasibətlərinin əsası qoyuldu.

Qars müqaviləsi türk diplomatiyasının mühüm qələbəsi idi. Rusiyanın iştirakı ilə Türkiyə Cənubi Qafqaz respublikaları ilə Qars müqaviləsini imzalamaqla özünün Şərq siyasətinin qələbəsini təsbit etdi. 1922-ci ildə Türkiyə Böyük Millət Məclisinin üçüncü toplantısını açarkən Mustafa Kamal Atatürk demişdir: *"Azərbaycan, Gürcüstan, Ermənistan Sovet respublikaları ilə Moskva müqaviləsinin əsasları çərçivəsində Qarsda 13 oktyabr tarixli müqavilə imzaladıq. Bu müqavilə ilə Şərqdə hüquqi bir şəkil alan indiki vəziyyətimiz Sevr müqaviləsinin tətbiqinin qeyri-mümkün olduğunu göstərən reallıqlardan biridir"*.

Qars müqaviləsi imzalandıqdan sonra Naxçıvan bölgəsi Sovet Sosialist Respublikası elan olunmasına baxmayaraq, Ermənistan Qars müqaviləsinin bu maddəsindən müəyyən bəhanələrlə imtina etməyə cəhd göstərir, Naxçıvana qarşı ərazi iddiaları ilə çıxış edirdi. Zaqafqaziya MİK-in qərarları ilə 1929-1931-ci illərdə Naxçıvan MSSR-in ərazisinin bir qismi qanunsuz olaraq Ermənistana verilmişdir. Belə ki, 1929-cu ildə Şərur qəzasının Qurdqulaq, Xaçık, Horadiz, Naxçıvan qəzası, Şahbuz nahiyəsinin Ağbinə, Ağxaç, Almalı, Dağ Almalı, İtqıran, Sultanbəy kəndləri, Ordubad qəzasının Qərçivan sovetliyinə daxil olan Mehri, Buğakər yaşayış məntəqələri, Kilit kəndinin bir hissəsi, ümumən, 657 kvadratkilometr sahə Ermənistana verilmişdir. Sonrakı illərdə də bir sıra ərazilər Ermənistana birləşdirilmiş və Naxçıvan Muxtar Respublikasının bəynəlxalq Qars müqaviləsi ilə təsbit edilmiş ərazisinin, təqribən, 15 faizi keçən əsrin 20-90-cı illərində Ermənistan tərəfindən qanunsuz olaraq zəbt edilmişdir.

Xalqımızın ümummilli lideri Heydər Əliyev çox böyük uzaqgörənliklə Naxçıvanın muxtariyyətə əldə etməsinə və bu sahədə Moskva və Qars müqavilələrinə böyük əhəmiyyət verərək demişdir: ***"Naxçıvanın muxtariyyəti tarixi hadisədir. Bu, çətin bir dövrdə böyük bir mübarizənin nəticəsi olubdur. Naxçıvanın statusunu qoruyub saxlamaq üçün Moskva müqaviləsinin və xüsusən Qars müqaviləsinin böyük əhəmiyyəti olubdur. Naxçıvan əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın, Azərbaycanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir"*.**

Qeyd etmək lazımdır ki, əgər Naxçıvanda 1921-ci il referendumu olmasaydı, Naxçıvanın muxtariyyət məsələsi gündəlikdən çıxarılacaq, Moskva və Qars müqavilələrində öz əksini tapa bilməyəcəkdi. Qars müqaviləsinin 100 illiyi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2021-ci il 8 fevral tarixli Sərəncam imzalamış və Tədbirlər Planı təsdiq edilmişdir. Həmin Sərəncamda deyilir: ***"Qars müqaviləsi Naxçıvanın muxtariyyət statusuna təminat verən çox mühüm hüquqi, siyasi və beynəlxalq sənəddir. Qars müqaviləsinin imzalanması və Naxçıvanın muxtariyyət statusunun təsbit olunması dövlətçilik tarixinin mühüm mərhələdir. Bu tarixin öyrənilməsi və gələcək nəsillərə çatdırılması isə bütün dövrlər üçün aktual və vacibdir"*.**

*Ardı 3-cü səhifədə*

Qars müqaviləsi ilə bolşevik və daşnak siyasətinin hədəfinə çevrilmiş Naxçıvan Azərbaycanın ərazisi olaraq beynəlxalq status qazandı. Naxçıvan diyarı əhalisinin qətiyyətli mövqeyi və Türkiyə Milli hökumətinin ardıcıl və səmərəli diplomatik fəaliyyəti nəticəsində Moskva və Qars müqavilələri ilə bölgənin ərazi mənsubiyyəti məsələsi Azərbaycan üçün qanuni və ədalətli qaydada həll olundu.

Moskva müqaviləsində muxtariyyətin əsası qoyulmuş, Qars müqaviləsində tərəflər onu təsdiq etmiş, Naxçıvan ərazisində Naxçıvan SSRİ yaradılmış, lakin SSRİ-nin yaranmasından sonra, 16 iyun 1923-cü ildə siyasi və inzibati statusunda dəyişiklik edilən Naxçıvan SSR Naxçıvan diyarına çevrilmiş və yalnız 9 fevral 1924-cü ildə bölgənin inzibati və siyasi statusu bərpa edilərək Naxçıvan MSSR, 1990-cı il noyabrın 17-də isə Naxçıvan Muxtar Respublikası adlandırılmışdır.

Naxçıvanın muxtariyyəti daxili qanunvericiliklə yanaşı, qeyd olunduğu kimi, həm də beynəlxalq müqavilələrlə müəyyən olunmuşdur. Bu amil dünyadakı çox az muxtar qurumların statusunda öz əksini tapmışdır. Digər qurumlardan fərqli olaraq Naxçıvan Muxtar Respublikasının siyasi səlahiyyətlərə malik muxtar dövlət statusunda fəaliyyət göstərməsi, bu statusun dəyişdirilməsi prosedurunun mövcud olmaması və muxtariyyətin həm milli, həm də beynəlxalq müqavilələrlə müəyyənləşdirilməsi konstitusion səviyyədə əksini tapması Naxçıvan muxtariyyətini fərqləndirən əsas amillərdəndir. Bir çox Avropa siyasətçiləri Naxçıvanın muxtariyyətini nadir beynəlxalq model, hüquqi, siyasi və tarixi baxımdan bir fenomen kimi qiymətləndirirlər. Naxçıvanın muxtariyyət modeli 2013-cü il oktyabrın 30-da Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin sessiyasının sənədlərində xüsusi olaraq qeyd edilmişdir.

1921-ci ildə imzalanmış Qars müqaviləsi bütün XX əsr boyu öz müsbət rolunu oynamış və XXI əsrdə də bu davam edir. Təsadüfi deyildir ki, 44 günlük Vətən müharibəsi qalibiyyətlə başa çatandan sonra 2021-ci il iyunun 15-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın imzaladıqları Şuşa Bəyannaməsi – Müttəfiqlik müqaviləsi iki dost və qardaş ölkənin Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq etdi. Şuşa Bəyannaməsi tarixi varisliyi göstərməklə Qars müqaviləsinin həyatiliyini və uzunömürlülüyünü bir daha təsdiqlədi. Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə qardaşlığının həm siyasi, həm iqtisadi, həm hərbi, həm də mənəvi və başqa istiqamətlərin simvoludur. Şuşa Bəyannaməsi Qars müqaviləsinin məntiqi davamı olmaqla, Cənubi Qafqazda münasibətlərin yeni konfiqurasiyasının əsasını təşkil edir.

*Bu gün Naxçıvan Muxtar Respublikası uğurla və hərtərəfli inkişaf edir, yeni-yeni nailiyyətlər qazanır. Hazırda muxtar respublikada sosial-iqtisadi problemlərin həlli istiqamətində konkret tədbirlərin görülməsi, zəruri istiqamətlərin müəyyənləşdirilməsi Naxçıvanın davamlı və dayanıqlı inkişafına stimul verir. Dövlət siyasətinin muxtar respublikada məqsədyönlü şəkildə həyata keçirilməsi üçün göstərilən diqqət və qayğı nəticəsində həyatın bütün sahələrində uğurlar və nailiyyətlər əldə olunur.*

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***




## Naxçıvanda dəmir yolu nəqliyyatı inkişaf etdirilir

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2005-ci il 7 oktyabr tarixli Sərəncamı ilə hər il oktyabrın 13-ü ölkəmizdə dəmiryolçuların peşə bayramı kimi qeyd olunur.***

Dəmir yolu təsərrüfatının ən sürətli inkişafı ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illəri əhatə edir. 1969-cu ildə respublikaya rəhbər seçilən ulu öndərin təşəbbüsü sayəsində bütün respublika iqtisadiyyatında olduğu kimi, dəmir yolu nəqliyyatında da əsaslı dəyişikliklərə və inkişafa təkan verilmişdir. Belə ki, dəmir yolu üçün ən əsas amil sayılan yol təsərrüfatının və stansiyaların inkişafı ön plana çəkilmiş, yeni vağzal binaları inşa olunmuş, stansiyalarda yoldəyişən və işarəvermə qurğularının tam dispetçer mərkəzləşməsinə qoşulması təmin edilmişdir. Əgər 1969-cu ilə qədər dəmir yolunda 159 stansiya var idisə, qısa müddətdə onların sayı 176 olmuş, həmin dövrdə çəkilmiş yeni dəmir yolu xətlərinin uzunluğu 482,8 kilometrə, elektrikləşdirilmiş sahənin uzunluğu isə 1284 kilometrə çatdırılmışdır.

Ötən əsrin 90-cı illərində baş verən hadisələr, xüsusilə də erməni hərbi birləşmələri tərəfindən Azərbaycan ərazilərinin 20 faizinin işğal edilməsi və bir milyondan artıq azərbaycanlının qaçqın düşməsinə gətirib çıxaran təcavüz nəticəsində Azərbaycan dəmir yoluna da ciddi ziyan dəymişdir. Belə ki, 240 kilometrdən çox dəmir yolu xətti erməni təcavüzünə məruz qalmış, Mehri-Kərçivan sahəsində qatarların hərəkətinin dayandırılması nəticəsində Naxçıvan Muxtar Respublikası ölkənin əsas ərazisindən təcrid edilərək blokadaya düşmüş və dəmir yolu əlaqəsi kəsilmişdir.

1990-1993-cü illərdə muxtar respublikada yaşayıb fəaliyyət göstərən ulu öndər dəmir yolu infrastrukturunun dağılmasının qarşısını almış, daxili yük və sərnişin daşınmasında dəmir yolu nəqliyyatından istifadə olunmuşdur. Ümummilli liderin ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra isə iqtisadiyyatın bütün sahələrində olduğu kimi, dəmiryol nəqliyyatı da özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu qayğıdan muxtar respublikanın dəmiryol təsərrüfatına da xeyli pay düşmüşdür. Son illər Naxçıvan, Şərur, Şahtaxtı, Culfa, Ordubad sərnişin vağzalı binalarında, 12 stansiyanın İdarəetmə mərkəzlərində, cəmiyyət aparatının, eləcə də İnfrastruktur İdarəsinin inzibati binalarında əlavə olaraq 20-yə yaxın inzibati və yardımçı binada yüksək səviyyədə əsaslı təmir işləri başa çatdırılaraq istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 16 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2011-2015-ci illər üzrə İnkişaf Proqramı” muxtar respublikada dəmir yolu nəqliyyatının inkişafına təkan vermişdir. İnkişaf proqramına uyğun olaraq mühüm dəmiryol qovşağı olan Culfa stansiyasında yerləşən Yük və Sərnişin Daşımaları İdarəsinin inzibati binası, Culfa Lokomotiv Deposu, Lokomotiv Briqadalarının İdarəedilməsi Mərkəzi və Radiorabitə sexi binası əsaslı təmir edilərək istifadəyə verilmişdir. Muxtar respublikada yol-nəqliyyat kompleksinin yeniləşməsi istiqamətində görülən işlərin davamı olaraq Qarabörk və Vəlidağ stansiyalarında yükləmə və boşaltma meydanı yaradılmışdır. 2011-ci ilin may ayından isə Vəlidağ stansiyasından Qarabörk stansiyasına qum-çınqıl, Şahtaxtı stansiyasından isə Naxçıvan və Qarabörk stansiyalarına travertin-mərmər bloklarının daşınmasına başlanılmışdır. Həmçinin Culfa stansiyasında “Naxçıvan terminalkompleks” Birliyi üçün 258 poqonometr, Naxçıvan stansiyasında isə 220 poqonometr uzunluğunda dəmir yolu xətti çəkilmişdir.



Culfa sərhəd-keçid stansiyası ərazisində də yenidənqurma işləri aparılmış, Culfa dartı yarımstansiyasının binası əsaslı təmir olunmuşdur. Ötən müddətdə Naxçıvan, Ordubad, Şərur və Şahtaxtı stansiyalarında yolların və elektrik mərkəzləşdirmə qurğularının texniki vəziyyəti yaxşılaşdırılmış, qatarların təhlükəsiz hərəkəti təmin edilmişdir. 2014-cü il dekabr ayının 26-da İnfrastruktur İdarəsinin inzibati binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilmiş, Naxçıvan, Qarğalıq və Qıvraq dartı yarımstansiyalarında aparılan əsaslı təmir işləri başa çatdırılmışdır.

2016-cı ilin fevralın 23-də Tehran şəhərində “Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında Azərbaycan və İran dəmir yollarının əlaqələndirilməsi haqqında” Saziş imzalanmışdır. İmzalanan sazişə əsasən 2017-ci il dekabr ayının 29-da Naxçıvan-Təbriz-Tehran-Məşhəd qatarı fəaliyyətə başlamışdır. Bununla əlaqədar Bakı şəhərindən 3 yeni sərnişin vaqonu gətirilmişdir. Naxçıvan və Culfa stansiyalarında sərnişinlərin gömrük və sərhəd-buraxılışı qeydiyyatının asanlaşdırılması məqsədilə yeni müasir avadanlıqlar alınaraq quraşdırılmış, stansiyalarda əlavə olaraq miqrasiya və viza xidmətləri yaradılmışdır. Hazırda Bakı-Tbilisi-Qars dəmir yolunun Naxçıvan dəmir yolu xəttinə birləşdirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilir.

Muxtar respublikada aparılan tikinti-quruculuq işlərinin geniş vüsət alması “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin tabeliyindəki obyektlərin də simasını xeyli dəyişib. Bu tədbirlərin davamı olaraq 2018-ci il aprelin 2-də Ordubad dəmiryol sərnişin vağzalı və Yol Sahəsinin inzibati binaları, Ordubad İdarəetmə Mərkəzi və Yol Sahəsinin yardımçı binaları, yük anbarı, sərnişin və yük platformaları kompleks tikinti, yenidənqurma və əsaslı təmir işlərindən sonra istifadəyə verilmişdir. Bakı şəhərindən Avropa istehsalı olan 8 yeni oturacaq tipli sərnişin vaqonu alınıb gətirilmişdir. Vaqonlarda kombinasiya edilmiş istilik və soyutma sistemləri quraşdırılmış, sərnişinlərə internetdən, eləcə də televizorlardan istifadə etmək imkanı yaradılmış, hər vaqonda 2 nəzarət kamerası quraşdırılmışdır.

Xidməti ərazidə zəruri infrastrukturların yaradılması və maddi-texniki təminatın yaxşılaşdırılması məqsədilə Ordubad-Culfa sahəsində hərəkət edən yük-sərnişin qatarlarında dartı vasitəsi kimi istifadə olunması üçün 2019-cu ildə 1 ədəd ÇME-3 seriyalı 6069 saylı yeni manevr teplovozu Gürcüstan və Türkiyə üzərindən keçməklə muxtar respublikaya gətirilmişdir. Yaradılan şəraitin nəticəsidir ki, cari ilin 9 ayında cəmiyyət üzrə 98 min 290 sərnişin və 64 min 561 kiloqram yük daşınmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Bu gün ulu öndərin yolunun ölkə Prezidenti tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, Azərbaycanda bütün sahələr inkişaf etdirilir. Bu inkişaf dəmir yolu nəqliyyatını da əhatə etmişdir. Hər bir müstəqil ölkədə ən vacib sahələrdən biri də dəmir yolu nəqliyyatıdır. Çünki dəmir yolu nəqliyyatının inkişafı ölkənin müstəqilliyinin və iqtisadi qüdrətinin göstəricisidir. Blokada şəraitində olmasına baxmayaraq, muxtar respublikada da dəmir yolu təsərrüfatı qorunub saxlanılmaqla yanaşı, həm də inkişaf etdirilir”.***

Cari ildə vaqon və lokomotivlərin normal və fasiləsiz istismarının təmin olunması məqsədilə qabaqlayıcı tədbirlər görülərək Bakı şəhərindən zəruri ehtiyat hissələri tədarük edilmiş, Naxçıvan stansiyası ərazisində sərnişin vaqonlarının yuyulması üçün məntəqənin tikintisi başa çatdırılaraq uzunluğu 50 poqonometr olan dəmir yolu çəkilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası ilə əlaqədar ötən müddət ərzində “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən müvafiq işlər görülmüşdür. Belə ki, dəmir yollarının əsaslı təmiri, yenidən qurulması və Türkiyə Respublikasının dəmir yolları ilə birləşdirilməsi məqsədilə Culfa-Sədərək sahəsində yeni ikili dəmir yolunun çəkilməsi istiqamətində ilkin layihələndirmə işləri həyata keçirilmişdir.



Bütün inzibati, texniki və yardımçı, vağzal binalarında, həmçinin sərnişin vaqonlarında təhlükəli pandemiyaya qarşı zəruri qabaqlayıcı tədbirlər görülərək dezinfeksiya işləri həyata keçirilmiş və bu işlər davam etdirilir.

Dəmir yolu nəqliyyatı sisteminin idarə olunmasında ixtisaslı kadrların hazırlanmasına xüsusi diqqət yetirilir. Naxçıvan Dövlət Universitetində və Naxçıvan Dövlət Texniki Kollecində müvafiq ixtisaslar üzrə təhsil alan tələbələr üçün müasir əyani dərs vəsaitləri ilə təmin olunan auditoriyalar istifadəyə verilmişdir. Dəmiryolçu peşəsinin sirlərinin dərindən öyrənilməsi, praktik biliklərin artırılması və kadrların hazırlanması məqsədilə hər il tələbələr dəmir yolunun ayrı-ayrı strukturlarında istehsalat təcrübəsi keçirlər. Hazırda universiteti və kolleci bitirmiş 21 məzun dəmir yolunun bölmələrində müvafiq vəzifələrdə çalışırlar.

Ötən ilin 27 sentyabr tarixindən başlayaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı həyata keçirdiyi növbəti hərbi təcavüzünün qarşısını almaq məqsədilə ölkəmiz Vətən müharibəsinə başladı və rəşadətli ordumuz 30 il işğal altında olan torpaqlarımızı azad edərək tarixi qələbə qazandı. Məğlub olan düşmən noyabrın 10-da kapitulyasiya haqqında Bəyanatı imzalamağa məcbur oldu. Üçtərəfli Bəyanatın 9-cu bəndində qeyd olunduğu kimi, regiondakı bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir, bölgədə yerləşən dövlətlərin vətəndaşlarının, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə yaradılacaq dəhliz vasitəsilə Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsi bərpa olunur. Dəhliz region dövlətlərinin istifadəsi üçün zəmin yaradacaq.

Bu il mayın 10-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvana növbəti səfəri zamanı Ordubad dəmir yolu stansiyasında aparılan yenidənqurma işləri ilə tanış olarkən Zəngəzur dəhlizinin əhəmiyyətini bir daha qeyd edərək demişdir: ***“Mən təsadüfən Ordubad dəmir yolu stansiyası ilə tanışlığa gəlməmişəm. Çünki bunun da çox böyük rəmzi mənası var. Bu yaxınlarda buradan, təqribən, 50-60 kilometr uzaqlıqda yerləşən Mincivan qəsəbəsinin ermənilər tərəfindən dağıdılmış dəmir yolu stansiyasında baxış keçirdim. Orada dəmir yolu mövcud deyil. Mənfur düşmən bütün dəmir yolu infrastrukturunu dağıdıbdır, talan edibdir. Orada bir mərkəz olacaq, burada bir mərkəz olacaq. Zəngilanı Naxçıvanla ayıran cəmi 40 kilometrlik Zəngəzur dəhlizidir, hansı ki açılmalıdır və açılacaqdır”.***

2021-ci ilin iyun ayının 15-də Şuşada Azərbaycan və Türkiyə prezidentləri 1921-ci il 13 oktyabr tarixli Qars müqaviləsinə sadiq olduqlarını bildirərək “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi” imzaladılar. Bəyannamə ölkələrimiz arasındakı münasibətlərin bütün müstəvilərdə davamlı inkişafını təmin edəcəkdir. Sənəddə Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında dəhlizin açılması və bunun davamı kimi Naxçıvan-Qars dəmir yolunun tikintisi nəqliyyat-kommunikasiyalarının intensivləşməsinə töhfə kimi dəyərləndirilmişdir.

*Dəmir yolunun inkişafı istiqamətində həyata keçirilən tədbirlər, yaradılan nümunəvi iş şəraiti, dəmiryolçulara göstərilən dövlət qayğısı onların əməyinə verilən ən yüksək qiymətdir. Belə ki, ötən illər ərzində dövlətimiz tərəfindən muxtar respublika dəmiryolçularının əməyi yüksək qiymətləndirilərək onlardan 2-si Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə, 1-i “Şöhrət” ordeninə, 3-ü “Azərbaycan Respublikasının Əməkdar mühəndisi” fəxri adına layiq görülmüş, 27-si isə “Tərəqqi” medalı ilə təltif olunmuşdur. Dəmiryolçular bundan sonra da işlərini günün tələbləri səviyyəsində quracaq, sərnişinlərə yüksək səviyyədə nəqliyyat xidməti göstərəcək və muxtar respublikanın sosial-iqtisadi inkişafına öz töhfələrini verəcəklər.*

***“Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin mətbuat xidməti***

Xalq təqvimi

# Payızın bir ayı qışdandır, bir ayı yazdan...



***O zamanlar, hələ uşaq olsam da, yaxşı xatirimdədir. Elə ki payız gəldi, şəhərdən kəndə, ata-baba ocaqlarına üz tutardı oğullar, qızlar. Babamın böyük meyvə bağı, onlarla arı pətəyi, mal-qarası, kənddən bir az uzaqda da "torpaq payı" dedikləri yerdə ona atasından miras qalan çoxlu tut, cəviz ağacları vardı. Oğul-uşaq bir yerə yığışar, həmin bağların barını toplayar, qız-gəlin isə bu bardan qış üçün doşab, meyvə quruları və daha neçə-neçə nemət hazırlayardı. Həmin nemətləri də oğul-qızlarına pay-puş edərdi nənəm. Payız bar-bərəkət fəsli olduğu qədər, həm də zəhmət fəslidir, axı. Elə ki payız gəldi, kənd-kəsəyimizin bərəkət ətri aləmi bürüyər, əkin yerləri, tarlalar, bağ-bağat məhsulla aşıb-daşardı.***

Qızıl payız günlərində kənddə hər kəs bağ-bağatının barını-bəhərini yır-yığış eləyər, əkib-becərdikləri məhsulu, nazını-qayğısını çəkdikləri torpaqdan son dəninə, son meyvəsinə, son salxımınadək toplamaq üçün səylə çalışardılar. Qışda mal-qaranı bəsləmək üçün biçin yerlərindən qohum-qardaşın köməkliklə biçdiyi otdan taya hazırlanardı. Əkinçilər isə biçdiyi taxılın yığılması və sovuruğa verilib döyülməsi ilə məşğul olardılar. Payız nə qədər iş-gücün gərgin çağı olsa da, nazı ilə oynadıqları bağ-bağatın bəhri-barını görmək bir o qədər xoşbəxt edirdi zəhmətkeş insanları...

Qızıl payızı həsrətlə gözləyənlər də vardı. Toy-büsat vaxtı kimi uğurlu sayıb, sevib əzizləyirdik payızı. El-oba adətinə görə, məhsul toplanandan sonra düzdən, bağdan, dağdan əl-ayaq yığışanda, payız almasının, payız armudunun yanağına xal düşəndə yar-yaraşıqlı günlərin birində toylar toylara calanardı. Elimizdə, obamızda adət idi, hansı meyvə hansı gün dişə dəysə, yəni meyvə ağacları ilk bara gəlsə, həmin meyvədən xonça tutar, oğlan evindən qız evinə göndərərdilər. Nişanlı oğlanların qız evinə apardıqları səbət-səbət meyvə sovqatına xalq arasında "novarlıq" və ya "nubarlıq" deyərdilər. Nubarlıqdan qohum-qardaşa da paylanardı. Nənəm həmişə deyərdi ki, meyvənin nubarını yeyən adamın ürəyindən keçən dilək tezliklə qəbul olar.

Babam təsərrüfatçı olmaqla yanaşı, həm də müəllim idi. Hər zaman öyrətmək, nəyisə izah etmək eşqiylə yaşayırdı. Bizə – nəvələrinə deyərdi ki, havalar tədricən sərinləşib, yarpaqlar saralmağa başladığı, meyvələrin hamısının yetişib, quşların öz yuvasını tərk edib, isti ölkələrə köç etdiyi vaxtdan başlayır payız. Bu fəsildə dağların zirvəsi buludlanır, yaylaqlardan kükrəyə-kükrəyə gələn sel dağ çaylarını sıxışdırıb yatağından çıxarır, çaylar daşır, küləklər əsir, el-obaya payız xəbəri yetişir. Təbiət öz donunu dəyişərək qızıla bürünür. Babam deyərdi ki, payızın bu çağına el arasında "qoçqarışan" deyərlərmiş. Həmin müddətdə əvvəlcədən bəslənmiş qoçlar sürülərə buraxılırmış, – deyə nənə-babalarımız belə adlandırarmış bu dövrü. Hətta xalq arasında dağlara qar düşdüyü üçün çoxları bu dövrə "qoç boranı" da deyərlərmiş.

Dünyagörmüş 94 yaşlı nənəm söyləyir ki, hələ biz uşaqkən elə ki elin sərvəti, varı-dövləti ağaclardan, tənəklərdən daşınıb qurtarır, onda ürək arxayınlaşırdı. Uğurla başa çatan məhsul yığımı rahatlıq, xoş əhvali-ruhiyyə gətirir, bizi zəhmət qələbəsinin təntənəsinə çıxarırdı. Bu münasibətlə bayram edilərdi, şənliyə el ağsaqqalları, ahıllar, cavanlar, uşaqlar, yığışardılar. Bu bayram Novruz bayramı qədər yaşı olan "Mihircan" adlanırdı.



Novruz bayramı kimi Mihircan da böyük təntənə ilə keçirilərdi. Son illərə qədər bu bayram ilin əmək qələbəsi, ilin yekun bayramı – məhsul bayramı kimi qeyd olunarmış.

Nənəmin sözlərinə görə, dədə-babalarımız payızda ağaclara, havaya, el-obanın üstündən köç eləyib gedən quşlara nəzər salmaqla, göydən tökülən yağışın da, qarın da, qasırğa və tufanın da baş verəcəyini əvvəlcədən müəyyən edirmişlər. Belə bir inam var imiş ki, əgər qatarlanıb isti ölkələrə uçan durna dəstələri payızla vidalaşarkən alçaqdan uçarlarsa, qış sərt olacaq, yox, əgər durna köçü hündürdən qanad çalırsa, o zaman qış mülayim keçəcək. Bir də belə bir təcrübə var imiş, el arasında. Əgər payızın ilk ayında göy guruldasa, payız fəsli isti olacaq. Payızda yerə qar düşərsə, qış mülayim keçəcək, payız fəsli isti keçərsə, qış uzun sürəcək. Payız günlərində gecənin aydınlığında göydə ulduzlar sayrışanda, "sabah yaxşı gün olacaq" deyirmişlər babalarımız.

Nənəm deyir ki, əvvəllər kənd camaatı qış ehtiyaclarını toplamağa yazın ilk günlərindən başlayırdılar. Sonuncu qarın əriməsiylə taxıl sahələrində boygöstərən tulça zoğlarından turşu qoyar, körpə əvəliklərdən hörüklər hörüb, qurudardılar. Üzü yaya otların nazını çəkər, mal-qoyunun azuqəsini qar-su düşməyən yerlərə yığardılar. Əkin sahələrinin və meyvə bağlarının məhsulunu payızın sarı kəkili görünən kimi toplamağa başlayardılar. Bilirdilər ki, payız çaydaşıran leysanını başlarına tökməkdə gecikməyəcək. Bağ-bostanın məhsulundan satılıq olanını ayırıb rayon mərkəzinə enər, qışın ən əsas azuqəsini – un taylarını "ZİL" maşının arxasında üst-üstə qalayardılar. Ürəkləri tox halda kəndin dolaylı yolları ilə evə dönərdilər. Üzü qışa gedən payızda ellərimizin yır-yığışı qurtarar, qışın qayğısına başlanılardı. Kənddə hər kəs hərdən birinin evinə yığışar, köməkli olaraq qışa tədarük görərdilər. Ələyəz, əvəlik hörülər, dağ nanəsi, yarpız, kəklikotu, çobanyastığı qurudulardı. Turşular tutular, meyvələr dərilib əldamılara yığılar, cəviz, badam, fındıq kisələrə doldurulardı. Ağacların barından, nemətlərindən mürəbbə, kompot hazırlanardı. Əriştə kəsilər, qurudulub qovrular, buğdadan yarma hazırlayıb qış ruzisi kimi saxlanılardı. Bu işlər noyabrın axırlarınadək – çox soyuq düşməmiş yekunlaşdırılardı. Yayda qovurmalıq üçün bəslənilən ən gəlimli heyvanları kəsib, ətindən qovurma hazırlayıb, saxsı qablara doldurub, qışın oğlan çağına saxlanılardı. Qış nə qədər sərt keçsə də, soyuqlar uzun çəksə də, əldamına yığdıqları azuqələr onların ürəyini rahatladardı.

Babam deyir ki, payız fəslinin son ayına – noyabr ayına xalq təqvimində "xəzəl ayı" deyirmişlər. İlin bu vədəsində göy üzündə qara buludlar çoxalır, güclü yağışlar yağır. Qəfildən bulud haçalanır, göy nəriltiylə gurlayır, ildırım çaxır, dağların başında qılınc-qiyamət oynayır. Şimşəyin nərəsindən yer-göy lərzəyə gəlir, bitib-tükənməyən yağışın ardı-arası kəsilmək bilmir. Sel-su düz-dünyanı başına götürür, belə vaxtlarda məcrasına sığmayan dağ çaylarının da nəriltisi adamı vahiməyə salır. Qayalardan, dağlardan sel şəlalə kimi axır, yekə-yekə daşları, qollu-budaqlı ağacları süpürləyib qabağına qatır. Babam deyir ki, əvvəllər çox güclü yağışlar yağdıqda yol-iz dağılar, hətta bəzən dağ kəndləri ilə əlaqə də kəsilərdi.

Onun sözlərinə görə, payızın son ayında qəfildən başlayıb şiddətlə əsən küləkli-yelli soyuq günlərə el arasında "naxırqovan" deyirlərmiş. Belə sərt, şaxtalı günlərdə əsən külək, birinci növbədə, çöldə otarılan naxırı, yəni, mal-qaranı tövləyə salırmış. Elə buna görə də bu dövr "Naxırqovan" adlanırmış. Bundan sonra mal-qara qışboyu qışlaqda saxlanılar, yayda biçilib tayaya yüklənən otla yemlənərdi.

..."Payızın bir ayı qışdandır, bir ayı yazdan", – deyib atalarımız. Bu fəslin ilk günləri mülayim keçsə də, sonları küləkli, sazaqlı, hətta bəzən qarlı-boranlı olur. Ona görə də xalq qışa hazırlığı elə payızın ilk günlərindən başlayaraq sonuna qədər başa çatdırmağa çalışır ki, qarlı-şaxtalı qışı qarşılamağa hazır olsun. Həm də əvvəllər olduğu kimi, təəssüflə, nigarançılıqla deyil, xoş əhvali-ruhiyyə ilə. Çünki indi qış əvvəl olduğu kimi, heç kimi qorxutmur. Nə qədər çovğunlu, qarlı, boranlı olsa da. Hər kəsin isti ocağında mavi yanacağı, daimi yanan işığı... Artıq kimsə qışda yandırmaq üçün odun hayına düşmür, insanlar sularının qışda donmaması üçün nə edəcəklərini düşünmürlər. Çünki hər birimizi ayrı-ayrılıqda düşünən dövlətimiz bu kimi sıxıntılarımızı çoxdan həll edib.

**Gülcamal TAHİROVA**

## Basketbol birinciliyinin qalibləri müəyyən edilib



***Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin oğlan komandaları arasında basketbol üzrə muxtar respublika birinciliyi keçirilib.***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Basketbol Federasiyasının birgə təşkil etdiyi birincilikdə 6 komanda olimpiya sistemi üzrə mübarizə aparıb.

Naxçıvan Dövlət Universitetinin idman zalında iki gün davam edən yarışın bağlanış mərasimində çıxış edən Basketbol Federasiyasının sədri Elbrus İsayev bildirib ki, bu gün muxtar respublikamızda idmanın inkişafı üçün Naxçıvanda hər bir şərait yaradılıb və 12 idman federasiyası fəaliyyət göstərir. Basketbol Federasiyası da işini günün tələbləri çərçivəsində quraraq yeniyetmə və gənclərin idmana cəlbi, bu idman növünün kütləviləşməsi və gənclərin zərərli vərdişlərdən uzaq durması üçün daim məşqlər keçirir, tədbirlər təşkil edir. Bu gün keçirilən birincilik də gənclərin basketbola marağının yüksək olması bu idman növünün yüksəlişindən, inkişafından xəbər verir.

Gərgin mübarizə şəraitində keçən birinciliyin qaliblərini təbrik edən gənclər və idman naziri Ramil Hacı vurğulayıb ki, Naxçıvanda idmanın inkişafına dövlət qayğısının nəticəsidir ki, idmançıların yarış təcrübələrinin artırılması yönündə nazirlik federasiyalarla birgə tədbirlər təşkil edir, istedadlı idmançıları üzə çıxararaq yığma komandaların heyətləri formalaşdırılır. Çıxış edənlər qalib komandalara təbriklərini çatdırıb, idman və idmançılara göstərilən diqqət və qayğıya görə muxtar respublika rəhbərinə minnətdarlıqlarını bildiriblər.

Birinciliyin yekun nəticəsinə gəlincə, həlledici qarşılaşmada Naxçıvan Dövlət Universitetinin komandası ilə Naxçıvan Dövlət Universitetinin xarici tələbələrdən ibarət komandası üz-üzə gəlib. Görüş ikincilərin 33:23 hesablı qələbəsi ilə yekunlaşıb. Üçüncü yer uğrunda görüşdə isə Naxçıvan Tibb Kollecinin komandası Naxçıvan Müəllimlər İnstitutunun komandasını məğlub edib.

Sonda qalib komandalar diplom və kubokla mükafatlandırılıblar.

**Ceyhun MƏMMƏDOV**

## Maarifləndirmə tədbiri keçirilib



Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin "Bank Savadlılığı Komandası" tərəfindən istehlakçıların bank savadlılığının artırılması və onların hüquqlarının qorunmasına yönəlmiş müxtəlif səpkili tədbirlər həyata keçirilməyə başlanılmışdır. Bu təbirlərdə əsas hədəf qrupları məktəblilər, tələbələr, ev təsərrüfatları, kiçik və orta sahibkarlar, iqtisadiyyat və maliyyə-bank sektorunda işləyən, bu istiqamətdə təhsil alan, həmçinin öz bilik və bacarığını artırmaq istəyən şəxslər nəzərdə tutulmuşdur.

Dünən bank maarifləndirməsi çərçivəsində "Naxçıvan" Universitetinin tələbələri üçün "Mərkəzi Bankçılıq" adlı tədbir keçirilmişdir. Əsas məqsəd bank savadlılığının ictimai dəyər kimi tanınması, tələbələrin savadlılıq səviyyəsinin artırılması, həmçinin bank məsələləri ilə bağlı düzgün qərarların verilməsini dəstəkləmək və bank sektoru ilə əlaqəli öyrənilən bilik və bacarıqların bank əməkdaşları ilə birlikdə daha da təkmilləşdirilməsi və inkişaf etdirilməsindən ibarət olmuşdur.

Tədbir zamanı iştirakçılara Mərkəzi Bankın inkişaf yolu, məqsəd və funksiyaları, onun iqtisadiyyatda rolu, o cümlədən pul siyasəti, valyuta ehtiyatlarının idarə olunması, məzənnə rejimləri, uçot faiz dərəcəsi, inflyasiya və digər mövzular elektron slaydlarla tədris olunmuşdur. Həmçinin iştirakçılara *bizimpullar.az* portalı, *edu.e-cbar.az* virtual təhsil platforması və *axtar.bizimpullar.az* (*infobank.az*) maliyyə məhsul və xidmətlərinin axtarış sistemi barədə də geniş məlumat verilmişdir.

Sonda suallar ətraflı cavablandırılmışdır.

Qeyd edək ki, Mərkəzi Bank əhalinin bank bilik və bacarıqlarının artırılmasına yönəlmiş müxtəlif tədbirləri bundan sonra da davam etdirəcəkdir.

**Xəbərlər şöbəsi**

## Əmək yarmarkası olub

*Kəngərli rayonunda növbəti əmək yarmarkası təşkil olunub. Yarmarkada işaxtaranlara, ümumilikdə, 15 müəssisədən 91 boş iş yeri təqdim edilib. Nəticədə, 13 nəfərin sözügedən vakansiyalar üzrə işə göndərilməsi təmin olunub, 14 nəfərin isə özünüməşğulluq proqramına cəlb edilməsi üçün qeydiyyatı aparılıb.*

Qeyd edək ki, sözügedən tədbirə, hərbi xidmətdən yeni tərxis olunmuş gənclər də dəvət olunub. Hərbi xidmətdən yeni tərxis olunmuş gənclərə, onların vakant iş yerlərinə göndərilməsi, müvafiq peşə və ixtisaslara yiyələnməsi üçün peşə hazırlığı kurslarına cəlb olunması, əmək bazarına inteqrasiyası və rəqabət qabiliyyətinin artırılması və özünüməşğulluqlarının həyata keçirilməsi ilə bağlı məlumatlar verilib. Həmçinin əmək yarmarkasında peşə hazırlığı kurslarına qeydiyyatı aparılan 5 nəfərdən 3 nəfərini hərbi xidmətdən tərxis olunmuş gənclər təşkil edib.

Növbəti əmək yarmarkası oktyabr ayının 13-də Culfa rayonunda təşkil ediləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 37, mənzil 17-də yaşamış Qədimova Qəmər Şulan qızının adına olan evin 14206 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Muğancıq-Müslüm kənd sakini Məmmədova Ləyaqət Məmməd qızının adına olan JN-69$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Dizə kənd sakini Səfərov Kamran Xanbaba oğlunun adına olan JN-392$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 847